Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya və Ukraynadan qarşılıqlı zərbələr, NATO qırıcısı Litvada dron vurub

1 saat öncə




Sızran Neft Emalı Zavodunda yanğın

Rusiya və Ukrayna sentyabrın 15-nə keçən gecə qarşılıqlı zərbələr endirib, yanacaqdoldurma məntəqəsi və neft emalı zavodu hədəfə alınıb. Məlumatı yerli hakimiyyət orqanları və Telegram-dakı monitorinq kanalları yayıb.

Bu zərbələr ABŞ prezidenti Donald Trampın Moskva ilə Kiyevin bir-birinin enerji obyektlərini hədəfə almamaq barədə razılığa gəldiyini deməsindən bir neçə saat sonra baş verib.

Litva rəsmiləri isə bu gün – sentyabrın 15-də səhər saatlarında NATO qırıcısının ölkənin hava məkanına girən dronu vurduğunu bildiriblər.

Kiyev meri **Vitali Kliçko**nun sözlərinə görə, bu gün səhər Ukrayna paytaxtında yanacaqdoldurma məntəqəsi və anbarlar vurulub. Bir kişi ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Ukrayna rəsmilərinə görə, Rusiya son aylar əsasən ölkənin cəbhəyanı bölgələrində və onların yaxınlığında 300-ə yaxın yanacaqdoldurma məntəqəsini vurub.

Rusiyanın Ukrayna ilə sərhədi yaxınlığında yerləşən Taqanroq şəhərinə raket hücumu nəticəsində "Ozon" onlayn pərakəndə satış şirkətinə, kənd təsərrüfatı şirkətlərinə məxsus anbarlara ziyan dəyib. Bu barədə sentyabrın 15-də Rostov vilayətinin qubernatoru **Yuri Slyusar** məlumat verib.

Samara vilayətinə hücumda 40 dronun məhv edildiyi açıqlanıb. Bu vilayətdə bir neçə neft emalı zavodu yerləşir. Telegram kanalları dron hücumundan sonra Samara vilayətindəki Sızran neft emalı zavodunun sənaye ərazisində yanğın göründüyünü bildirib.

## NATO qırıcısı Litva üzərində dron vurub

Sentyabrın 15-də səhər saatlarında NATO qırıcısı Litva üzərində dronu vurub. Açıqlamanı Litvanın Milli Böhranların İdarə Edilməsi Mərkəzi (NKVC) yayıb. Bundan əvvəl paytaxt Vilnüsdə və ətraf bölgələrdə dron təhlükəsi ilə bağlı xəbərdarlıq elan edilib.

**"Litva NATO-dakı müttəfiqləri ilə birlikdə öz hava məkanını müdafiə edəcək"**, – Litva prezidenti **Gitanas Nauseda** hadisədən sonra "X" platformasında yazıb.

Litvanın LRT ictimai yayımçısı NKVC-nin ilkin məlumatlarına istinadla bildirib ki, dron qonşu Belarusdan gəlib və qərb istiqamətində hərəkət edib.

Avropa İttifaqı və NATO üzvü Litvadakı insidentdən əvvəl Rusiya Polşa sərhədi yaxınlığında dron hücumları həyata keçirmişdi.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur